# "Şuşa ili"ndə Şuşa daha sürətlə tikiləcək

***Qarabağın təxminən 30 illik erməni işğalından azad edilməsi bu gün Azərbaycan vətəndaşları və ölkəmizdən kənarda yaşayan soydaşlarımız tərəfindən xüsusi qürur və iftixar hissi ilə yad edilir. Şuşanın azad edilməsi isə ayrıca bir fəxarət hissidir. Bu hissi bizə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz yaşatdı. Şuşanın fəthi qeyri-adi qəhrəmanlıq nümunəsi olaraq gələcək nəsillərimiz üçün də böyük iftixar mənbəyi olacaq. Prezident İlham Əliyev məhz bütün bunları nəzərə alaraq 2022-ci ili "Şuşa ili" elan edib.***

Dövlət başçısı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində də bu məsələyə toxunaraq bildirib ki, bu il Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Şəhərin təməli Qarabağ xanı Pənahəli xan tərəfindən 1752-ci ildə qoyulub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Məhz bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə Prezident 2022-ci ili "Şuşa ili" elan edib. Təbiidir ki, Azərbaycan liderinin bu qərarı bütün xalqımızın ürəyindən xəbər verir. Hamımız sevinirik ki, bu gün Şuşa azad nəfəs alır, mərd və mübariz oğullarımız bu mədəniyyət beşiyimizi göz bəbəyi kimi qoruyur. Bununla yanaşı olaraq, Şuşa həm də yenidən qurulur, tikilir, abadlaşır. Prezident Şuşanın azad olunduğu gün təsadüfən deməmişdi ki, əziz Şuşa, biz səni dirçəldəcəyik.

Azərbaycan lideri birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə dekabrın 24-də Şuşada olarkən də bu barədə danışaraq deyib ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində aparılan işlərin yeni mərhələsinə qədəm qoyuruq: "Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada – Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada – Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

Dövlət başçısı həmin gün bir şeyə kədərləndiyini bildirib ki, atası ulu öndər Heydər Əliyev bu günü görə bilməyib.



Ancaq əmin olduğunu deyib ki, onun da, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməmiş minlərlə, on minlərlə məcburi köçkünün də ruhu şaddır. Eyni zamanda, şəhidlərimizin ruhu şaddır: "Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik".

Prezident xatırladıb ki, bu il "Xarıbülbül" festivalında ümummilli liderin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edilib. Heydər Əliyev böyük inamla, böyük sevgi ilə deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü buna inanırdı və xalqı da inandırırdı: "Bizə də onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir".

Azad edilmiş torpaqlarda, o cümlədən, Şuşada geniş quruculuq-bərpa işləri aparılır, özü də çox böyük sürətlə. Dünya tarixində müharibələrdən sonra heç yerdə bu sürətlə quruculuq-bərpa işləri aparılmayıb. Bir məsələni də qeyd etməliyəm ki, Prezident İlham Əliyev bu və ya digər rayonda, eləcə də Şuşada görülən işlər haqqında ölkə ictimaiyyətinə müntəzəm məlumatlar çatdırır. Şübhəsiz ki, dövlətimizin qarşısında duran əsas vəzifə keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və dövlət başçısı da bütün səylərini bu istiqamətə yönəldib. Bu ilin "Şuşa ili" elan edilməsinin əsas məqsədlərindən biri də məhz şəhərin bərpası prosesini sürətləndirməkdir. Bu amal uğrunda çalışanlara uğurlar diləyirik!

***Məhərrəm SƏFƏRLİ,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

Xalq qəzeti .- 2022.- 6 yanvar.- S.5.